Azərbaycan Resp... ...kasının
Auditorlar Palatası
Daxil № 66
"27" 01 2021-ci il

# AZƏRBAYCAN RESPUBLİKASI
# GÖYÇAY RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISI

Az 2300 Göyçay şəhəri, M.Ə.Rəsulzadə küçəsi 118. Tel: / Fax: 02027-4-61-55, E-mail: mail@goychay-ih.gov.az

№ 23 "18" yanvar 2021-ci il

**Azərbaycan Respublikası Auditorlar Palatasının sədri cənab Vahid Novruzova**

**Hörmətli Vahid müəllim,**

Milli audit sisteminin qurulması istiqamətindəki fəaliyyətiniz barədə qısa arayışınız bir daha təsdiq edir ki, son illər Azərbaycanda milli audit sisteminin inkişaf etdirilməsi və müstəqil auditin rolunun artırılmasında Auditorlar Palatası tərəfindən əməli tədbirlər görülmüş, ölkəmizdə milli audit sistemi bərqərar olmuşdur.

Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılmış Azərbaycan Respublikası Auditorlar Palatası ölkə prezidenti cənab İlham Əliyevin tapşırıqlarını rəhbər tutaraq ölkəmizdə maliyyə və vergi intizamının gücləndirilməsində, iqtisadi islahatların günün tələblərinə uyğun aparılmasında öz töhvələrini verirlər. Hazırda Auditorlar Palatası ölkədə pul vəsaitlərindən səmərəli istifadə edilməsi, koorupsiyaya qarşı mübarizə, kölgə iqtisadiyyatının aradan qaldırılması kimi vəzifələrin uğurla yerinə yetirilməsi üçün əməli tədbirlər görür.

Məlumat üçün bildirmək istəyirəm ki, rayon İcra Hakimiyyəti Auditorlar Palatası ilə səmərəli əməkdaşlıq edir, rayon bələdiyyələri auditor xidmətlərinin göstərilməsi üçün bir qayda olaraq palatanın üzvü olan auditor təşkilatları, həmçinin sərbəst auditorlarla müqavilələr bağlayır və təkcə son iki ildə 26 belə müqavilə icra olunmuşdur.

Hörmətli Vahid müəllim,

İcazə verin Auditorlar Palatasının fəaliyyətə başlamasının qarşıdan gələn 25 illik yubiley münasibəti ilə Sizi və bütün kollektivinizi səmimi qəlbdən təbrik edim, ölkə iqtisadiyyatında şəffaflığın təmin edilməsi və kölgə iqtisadiyyatının aradan qaldırılması istiqamətindəki fəaliyyətinizə uğurlar arzulayım.

**Hörmətlə,**

**Mehdi Səlimzadə**